

# MÜHACİR



"İranlı Mühacirlər Cəmiyyəti" İctimai Birliyinin mətbu nəşri
№ 02 (96) 12 oktyabr 2016-cı il

ایرانلی مهاجرلر جمعیتی، اجتماعی بیرلیین مطبو نشری

# Baş redaktordan

## 100-ün zirvəsindən boylanarkən



21 AZƏR – 70

S.C.Pişəvəri:
Ağayi Qulam Danişyan, etdiyiniz fədakarlıq və əncam verdiyiniz xidmətlərə görə Mərkəzi Komitənin təsvibi üzərinə siz Səttərxan nişanı ilə təltif olunursunuz.

General Qulamyəhya Danişyan

Qulamyəhya Danişyanın "Səttar xan" ordeni ilə təltif edilməsi barədə S.C.Pişəvərinin fərmanı



1975-جی ایلده آذربایجان کمونیست پارتیاسی مرکزی کمیته سی نین بیرینجی کاتبی حیدر علی یف آذربایجان دموکرات فرقه سی مرکزی کمیته سی نین اجرائیه کمیته سینی قبول ائتدییی زامان.

1975-ci ildə Azərbaycan Komunist Partiyası Mərkəzi Komitəsinin Birinci Katibi Heydər Əliyev Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin İcraiyə Komitəsini qəbul edən zaman.

Bizim nəsil yüz illərdir Savalanın 7 kilometrliyində yerləşən Nünəkəran kəndində məskunlaşıb. Cəmi iki dəfə görmüşəm. Mənzərəsinə, gözəlliyinə söz ola bilməz. Suyu, ab- havası, nemətləri məlhəm olduğundan həkimlər işsizlikdən burada çox da duruş gətirə bilmirlər. Maraqlısı budur ki, 90-100 il yaşamayana "həyatdan erkən getdi" deyirlər. 26 il əvvəl sərhəd dirəkləri yandırılanda digər həsrətlilərə qoşulub o taya addımlamasaydım, doğmalarıma qovuşmasaydım yəqin valideynlərimin sözlərini ciddiyə almayacaqdım.

Aradan 26 il ötüb. Dünyada çox qasırğalar, təlatümlər olub, siyasi xəritələr dəyişib, soyuq qonşuluğu isti münasibətlər əvəzləyib. Bir vaxtlar İrana qonaq gedib- gələn mühacirin başına az qala bütün el- oba toplaşar, saysız- hesabsız suallarla müsafiri əldən salardılar. İndi sadələşdirilmiş qaydalar hər gün onlarca insanın o taya gediş- gəlişini asanlaşdırıb. Sağ olsunlar, salamla yanaşı hədiyyələr də gətirirlər.

Atamla yaşıd həmkəndlilərinin əksəriyyəti yüzü adlayıb. 65 yaşlı mənim isə qohumlarımın təbirincə desək, dünyanı erkən tərk edən atam sinnində olmağıma vur-tut 12 il qalır. Əlbəttə, qismətdən artığa göz dikmək əbəsdir. Amma fikirləşirəm bu həsrət, niskil necə qüdrətli qüvvə, inam, nikbinlik mənbəyi imiş ki, başa çatantək iki- üç ilin ərzində xəzan seli kimi yüzləri özü ilə sovurub apardı.

Bəzən hissiyyata qapılaraq fədai, inqilabçı, "21 Azər" Hərakatının öncülü kimi şanlı tariximizin səhifələrinə adları əbədi həkk edilən həmin insanların cismən yoxluğundan pessimizmə qapılır və "yaxşı kişilər atları çapıb getdilər" məsəlini dönə- dönə dilə gətirmək istəyirəm. Belə məqamlarda bizə bu sayaq nəsihət, vəsiyyət olunmadığını xatırlayır, fikrimdən daşınıram. Ətrafa nəzər salaraq hələ tükənmədiyimizi, saysız-hesabsız yaxşılarla yola davam etdiyimizi göz önünə gətirir, təskinliyə üstəlik xoş ovqatlı notlar əlavə etməyə çalışıram. Mənə elə gəlir ki, Azərbaycanda kamil həkim, pedaqoq, alim, mütəxəssis, sənətkar ... imicinə malik bu insanları yüzə qovuşdurmaq üçün üzərimizə düşən qeyri- adi öhdəliyimiz bizim də ömrümüzə ömür calayacaq. Adlarını sadalamıram ki, layiqlilərdən kiminsə kənarda qalmasını özümə bağışlaya bilmərəm.

İki ilə yaxındır İranlı Mühacirlər Cəmiyyətinin sədriyəm. Fəqət rəhbər kreslosunda oturmağa cəsarətim çatmır. Ötən sayımızdakı yazıda vurğuladığım kimi dağdan ağır, milli- azadlıq hərakatında əbədi izi qalan həmin şəxsiyyətlərin əvəzləyicisi qismində görməyi özümə hələlik haqq etmirəm. Bəlkə də qismət oldu. Yoldaşlarıma və məsləkdaşlarıma söykənərək yalnız və yalnız etimadı işlə, əməllə doğrultmaq barədə hər gün, hər saat düşünməliyəm.

Bu sətirlərin sizlərə " Mühacir"də təqdim edildiyi gündə çoxlarına sərt göründüyü qədər səmimiliyi, qayğıkeşliyi, insanpərvərliyi ilə yadda qalan, yaxşılıqlarından demək olar hər bir iranlı mühacır ailəsinə pay düşən general Qulam Yəhya Daneşaninin 110 illik yubileyini keçirəcəyik.

Azərbaycan Demokrat Firqəsinin və mühacir təşkilatımızın yaranmasında, inkişafında, varlığının qorunmasında müstəsna xidmətləri olan görkəmli şəxsiyyət barədə ətraflı söhbət açılacağından istərdim həyat və kişilik məktəbini sadəcə xatırlamaqla kifayətlənməyək. Bildiklərimizi, öyrəndiklərimizi, bir sözlə, örnək nə varsa hamısını başqalarına, xüsusilə gənc nəslə ərməğan edək.

Belə qənaətdəyəm ki, bu eyni zamanda əsr zirvəsinə qovuşanların yubileyidir. Atam Məhəmmədin də 100 yaşı tamam olur. Mülkiyyətindəki iri torpaq sahələri azadlıq aşiqi olmasına maneçilik törədə bilməyib. Fədai başçısının son nəfəsinədək ideyalarına sədaqətindən biz övladları da qürur duyuruq.

İnqilab nəğməkarı, sənətkarı Aşıq Hüseyin Cavanla yaşıd və möhkəm dost idilər. Yayda Xoşbulaq yaylağında dəyələrimiz illər boyu qonşu oldu. Barmaqları tellərə toxunanda ətrafda qələbəlik yaranardı. Deyirlər sazı bu günədək Təbrizdə qorunub saxlanılmaqdadır. H.Cavandan nəğmə oxumayanı, ustadnamə deməyəni orada aşıq saymazlar.

***Sarılıb boynuna bir körpəsayaq***
***Doyunca hüsnünə baxaydım, Təbriz.***
***Sən olaydın bir dağ, mən də bir bulaq,***
***Şırhaşır köksündən axaydım, Təbriz.***

*"Təbriz" şeirindən*

***Bir soraq gətirdi könül tərlanı,***
***Sel kimi hər yanı aldı fədai.***
***Vuruş meydanında, silah əlində***
***Şir kimi meydana gəldi fədai.***

*"Fədai" şeirindən*

Gözləyirdik milli ədəbiyyatımızda əbədi izləri qalan Balaş Azəroğlu, Əli Tudə, Söhrab Tahir, Hökumə Billuriyəni bu dördlükdən heç olmasa biri yüzə çatmaqla illərin ənənəsini poza. Heyhat, 90 illik yubileylərini onlarsız qeyd etməyimiz bizlərə necə mütəəssirlik yaşatdı?! Elə bu yaş sərhəddində lövbər salan Mədinə xanım və Balaş Azəroğlu kimi qismətinə üç dəfə mühacirət düşən, sonda, doğulduğu Şuşaya həsrət qalan Sabir Nəbi oğlu Əmirovtək. Filologiya elmləri doktoru, professor, yazıçı, publisist S.Nəbioğlu sağlığında yaddaşlarda "Cavanlar Təşkilatının əbədi sədri" adlandırılırdı. O, şirin ləhcəsi, dolğun bədii ifadəsi ilə sənətkarlarımızı niyə sevməyə məhkumluğumuzun fəlsəfi izahını verirdi. Özü də hər biri barədə:

- Hökumə xanım mühacirət illərini ana nəfəsindən uzaqlarda yaşasa da, onun qanadlı misraları sərhədləri uçub keçməkdə çətinlik çəkmirdi.

Necə də məharətlə ümumiləşdirilmiş fikirdir, döyüşkən poeziya qüdrətinin inikasıdır. Bu xislətli insanlar dünyaya nə üçün gəldiklərinin fərqində idilər. Ona görə yazıb- yaratmağa, miras qoymağa can atırdılar. Billuri deyirdi:

***Niyə gəldim bu dünyaya,***
***Nədən ötrü?***
***Kimlər dözdü min əzaba***
***Məndən ötrü?***
***Düşünürəm gəlmişəm ki,***
***Bu dünyaya, insanlara***
***Öz borcumu verib gedim.***
***Evlər qurum, bağlar salım,***
***Düzənlərə, yamaclara,***
***Yaşıllıqlar sərim gedim.***

Bəs "Azərbaycan" ruznaməsinə redaktorluq etmiş alim- filoloq Məmmədrza Afiyət, tələbələrinin indiyədək dilindən düşməyən professor Firuz Sadıqzadə, kimlər, kimlər...

Həyat davam edir. Su gələn arx dolub- daşmaq eşqindədir. Yəqin canlı yüz yaşlı yubilyarları təbrik etmək bizim nəsillərin də qismətinə düşəcək.

Çünki:

***Bu yol bizə nəsillərin yadigarı,***
***Gedənlərə, qalanlara salam olsun!***
***Bu yol bizə ataların, babaların amanatı,***
***Bizimlə yol gedənlərə salam olsun!***

***Rəhim Hüseynzadə,***
*"Mühacir" qəzetinin baş redaktoru*